

Almas İLDIRIM

**ƏSİR AZƏRBAYCANIM**

Hanı məni gül qoynunda doğuran,
Xəmirimi göz yaşıyla yoğuran,
Beşiyimdə "layla, balam" çağıran…
Azərbaycan, mənim baxtsız anam, oy…
Neçə ildir həsrətinlə yanam, oy…

Xəbər alsam Muğanımdan, Milimdən,
Nazlı Bakım, o neft qoxan gülümdən,
Kim demiş ki, düşmüş adın dilimdən,
Azərbaycan, mənim eşsiz yurdum, oy,
Ölməz eşqim, içimdəki dərdim, oy!..

Salam desəm, rüzgar alıb götürsə,
Ağrı dağdan Alagözə ötürsə,
Gur səsimi göy Xəzərə yetirsə,
Xəzər coşub zəncirini qırsa, oy…
Hökm etsə, bu sərsəm gediş dursa, oy…

Könlümə tək Kə'bə etdim səni mən,
Sənsiz neylim qürbət eldə günü mən,
Sənsiz neylim Allahı mən, dini mən?..
Azərbaycan, mənim tacım, taxtım, oy…
Oyanmazmı kor olası baxtım, oy…